Zəfər tarixinin xronikası : 4 noyabr 2021-ci il // Xalq qəzeti. - 2021. - 4 noyabr. - № 239. - S. 10.

Həmin gün:
– Prezident İlham Əliyev özünün “Twitter” hesabında bildirib: “Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”;
– Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində deyib: “Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik”.;
– Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində Ermənistanın Qarabağda həyata keçirdiyi etnik təmizləmədən danışarkən vurğulayıb: “Təəssüflər olsun ki, heç kim Ermənistanı bunda günahlandırmayıb. Biz Ermənistana qarşı hər hansı sanksiyaları görmədik, bizə hər hansı ciddi informasiya dəstəyi görmədik. Beləliklə, bu, edildi və onlar yerində reallıq yaratdılar. Bu, birincisi. İkincisi, 200 il bundan əvvəl orada, ümumiyyətlə, erməni yox idi. Çünki mən Qarabağ xanının Rus imperiyası ilə imzaladığı müqavilələrə dəfələrlə istinad etmişəm. Həmin müqavilədə – 1805-ci il Kürəkçay müqaviləsində etnik ermənilər barədə heç nə deyilmir. Etnik ermənilər bu regiona onun dini və etnik tərkibini dəyişdirmək məqsədilə Şərqi Anadoludan və İrandan çar Rusiyası tərəfindən gətirilmişdilər”.;
– Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter” hesabında qeyd edib: “Azərbaycanlı mülki şəxslərin təhlükəli vəziyyətdə yaşadıqlarını və Ermənistanla Azərbaycan arasında davam edən müharibəni işıqlandıraraq vəzifələrini peşəkarlıqla görən “TF1” və onun müxbiri Liseron Boudoula qarşı Fransadakı erməni lobbisinin təhdidlərini və nifrət dolu təhqirlərini qətiyyətlə pisləyirik”.;
– Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib: “İşğaldan azad edilmiş ərazilərimizdə mülki insanın öldürülməsi barədə qondarma rejimin yaydığı məlumat növbəti dezinformasiyadır. Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biri də odur ki, Azərbaycan mülki insanlarla savaş aparmır”.;
– Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu Avropa Komissiyasının videoformatda keçirilən 130-cu nazirlər toplantısında çıxış edib.
Mövlud Çavuşoğlu çıxışında Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) siyasi məqsədlər üçün istifadə edilməsinin yolverilməzliyini bildirib. Nazir deyib: “Azərbaycanın ərazi bütövlüyü üçün hər birinizi “amma, əgər” demədən səsinizi çıxarmağa çağırıram. İkili standartlar olmamalıdır. Gürcüstan və Ukraynanın ərazi bütövlüyü və suverenliyini necə müdafiə ediriksə, Azərbaycanın da haqlarını eyni qaydada qorumalıyıq. Azərbaycan, sadəcə olaraq, beynəlxalq səviyyədə tanınmış ərazilərinə nəzarəti bərpa etmək istəyir”.
Cəbhədə son vəziyyət

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.
Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.
Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 haubitsa topu, 1 ədəd "Zastava M-55" zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını sıradan çıxarılıb.
Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Hüsənli və Qazyan kəndlərini, eləcə də Ağcabədi rayonunun Hacılar, Qaraxanlı və Boyat kəndlərini ara-sıra artilleriya atəşinə tutub.
Ermənistan–Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb.
Ermənistanın mülki cinayətlərinin statistikası
Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.
Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 91 nəfər həlak olub, 405 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb.
Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.
Beynəlxalq KİV Vətən müharibəsindən yazır:
– Misirin nüfuzlu "Almasryalyoum" qəzeti: "Azərbaycanın dini lideri, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə dünya ictimaiyyətinin Ermənistan silahlı qüvvələri tərəfindən məsum uşaqların öldürülməsinə yekdil və birmənalı mövqe ifadə etmədiyini bildirib".
– Almaniyanın "Tekk.tv" portalında "Fransanın faşist qrupunun lideri Ermənistan üçün müharibə aparmağa and içir" adlı məqalə dərc olunub.
Məqalədə vurğulanır ki, Fransanın neonasist sağçı qrupunun (ZVP) lideri Mark de Kakkere-Valmenir azərbaycanlılara qarşı vuruşmaq üçün Dağlıq Qarabağdakı erməni əsgərlərinə qoşulub. Həmin şəxs hərbi formada əlində silahla sosial mediada şəkil paylaşıb. Onun müharibədə iştirakı PKK terrorçu təşkilatının və sağçı ekstremist Avropa qruplaşmalarının nümayəndələrinin də Ermənistan tərəfində vuruşmağa başladıqlarını deməyə əsas verir. Azərbaycanın silahlı qüvvələri tərəfindən əsir götürülmüş A.Mikaelyan adlı erməni əsgəri

Dağlıq Qarabağda erməni əsgərlərinin sırasında PKK terrorçularının da vuruşduqlarını etiraf edib.

– Gürcüstan mətbuatı Azərbaycan Ordusunun Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində həyata keçirdiyi hərbi əməliyyatlar barədə silsilə materiallar yaymaqda davam edir.

Azərbaycan, gürcü, rus və ingilis dillərində yayılan məlumatlarda cəbhənin müxtəlif istiqamətlərində gedən ağır döyüşlərdən bəhs olunur. Bildirilir ki, Ermənistan silahlı birləşmələri noyabrın 3-də və 4-nə keçən gecə cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Lakin şanlı Azərbaycan Ordusu düşmənə layiqli cavab verib və ermənilər xeyli sayda itki verərək geri çəkiliblər.

Materiallarda, həmçinin Azərbaycan Ordusu tərəfindən məhv edilən Ermənistan silahlı birləşmələrinə məxsus hərbi texnikanın siyahısı da əksini tapıb.